**Aysu Əliyeva**

# III SİNİF AZƏRBAYCAN DİLİ FƏNNİ ÜZRƏ DİL QAYDALARININ TƏDRİSİ

Dil qaydalarının əhəmiyyəti Azərbaycan dili kurikulumunda IV siniflər) məzmun xətləri içərisində xüsusi olaraq bəhs edilir. Dil qaydalarının öyrədilməsi işi ibtidai sinif şagirdlərinin əsas fəaliyyət istiqamətlərindən biri kimi dəyərləndirilir. Bu məzmun xətti dilimizin fonetik, leksik və qrammatik quruluşu ilə bağlı minimum bilik və bacarıqların yığcam, sadə qaydalar və aydın şərhlər şəklində şagirdlərə çatdırılmasını, orfoqrafiya, orfoepiya və durğu işarələri üzrə zəruri vərdişlərin aşılammasını təmin edir. Şagirdlərin qazandıqları bu vərdişlər oxu və yazı qabiliyyətlərinin, rabitəli nitq inkişafının, kommunikativ mədəniyyətinin formalaşmasına imkan yaradır

Azərbaycan dili fənninin tədrisində qarşıya qoyulan əsas məqsəd şagirdlərə dil qaydalarının mənimsədilməsidir. Dil qaydalarının öyrədilməsində ən səmərəli üsul müasir təlim metodları hesab edilir. Ayrı-ayrı bölmələrin tədrisində fərqli metodlardan istifadə oluna bilər. Dil qaydaları məzmun xətti Azərbaycan dilində qaydaların öyrənilməsində proqram rolunu oynayır. Müəllim artıq şagirdlərin tədris ilinin sonunda yiyələnməli olduğu bilik və bacarıqları öncədən bilir.

İbtidai siniflər üçün fənn kurikulumlarında Azərbaycan dili təlimində dil qaydalarının öyrədilməsindən əldə edilən təlim nəticələri həm ümumi, həm də hər bir sinif üzrə ayrıca müəyyənləşdirilmişdir. Azərbaycan dili kurikulumlarında dil qaydalarının öyrədilməsi ilə bağlı nəzərdə tutulanlar ümumi təlim nəticələrində verilmişdir. Ümum təlim nəticələri aşağıdakılar nəzərə tutulmuşdur:
Şagird:

- yaş həddinə uyğun zəruri fonetik, leksik, qrammatik biliklərə yiyələndiyini nümayiş etdirir;
- seçdiyi dil faktlarını qruplaşdıraraq təqdim edir;
- dinlədiyi fikri anladığını nümayiş etdirir;
- şifahi nitq bacarıqlarına malik olduğunu nümayiş etdirir;
- qarşılaşdığı sözlərin mənasını başa düşdüyünü nümayiş etdirir;
- oxu mexankasına və vərdişlərinə yiyələndiyini nümayiş etdirir;
- yazı texnikasına və vərdişlərinə yiyələndiyini nümayiş etdirir;
- kalliqrafiya və orfoqrafiya qaydalarını gözləməklə müxtəlif növ yazılı çalışmalarını yerinə yetirir;
- fonetik, leksik, morfoloji, sintaktik, orfoqrafik qaydaları mənimsədiyini nümayiş etdirir [1].

Hər sinifin özünəməxsus öyrənilən problemləri, tələbləri vardır. Bu "zəruri dil qaydalarını mənimsədiyini nümayiş etdirir" adlı ümumi bir müddəa müxtəlif etaplara bölünür, siniflər üzrə öyrədilməsi nəzərdə tutulan dil qaydaları konkret məzmun standartları şəklində qərarlaşır. Bunlar aşağıdakılardan ibarətdir: III sinifdə Azərbaycan dilinin dil qaydalarının tədrisi nəticələrinə görə şagird:

*4.1. Zəruri dil qaydalarını mənimsədiyini nümayiş etdirir.*

4.1.1. Sait və samit səsləri xüsusiyyətlərinə görə fərqləndirir.

4.1.2.Sözlərin böyük hərflə yazılışına dair qaydaları (bayramlar və tarixi günlər) məqamına uyğun tətbiq edir.

4.1.3.Rast gəldiyi yeni sözlərin mənasını, yazılış və tələffüzünü müəyyənləşdirmək üçün lüğət və sorğu kitablarından istifadə edir.

4.1.4. Qrammatik mənalarına görə (isim, sifət, fel, say) sözləri qruplaşdırır.

4.1.5. Cümlənin formalaşmasında baş və ikinci dərəcəli üzvlərin rolunu sadə şəkildə izah edir.

4.1.6. Cümlədə sözlərin düzgün ardıcıllığını müəyyən edir.

4.1.7. Məqsəd və intonasiyanı dəyişməklə verilmiş cümləni müxtəlif məqamlarda işlədir.

**4.1.6. Cümlədə sözlərin düzgün ardıcıllığını müəyyən edir.**

4.1.7. Məqsəd və intonasiyanı dəyişməklə verilmiş cümləni müxtəlif məqamlarda işlədir.

III sinif şagirdlərinin təfəkkür fəaliyyətinin inkişafında, nitq bacarıqlarının inkişafında, Azərbaycan dili təliminin keyfiyyətinin yüksəldilməsində dil qaydalarının qrammatik-leksik təsnifi və inteqrativ tədrisi mühüm rol oynayır. Dil tədrisinin əsas məqsədi şagirdlərdə nitq qabiliyyətlərini inkişaf etdirmək, onların qrammatik və leksik biliklərini artırmaqdır. Xüsusilə, III sinifdə dil qaydalarının tədrisi şagirdlərin gələcək təhsil həyatında möhkəm baza rolunu oynayır. Bu mərhələdə şagirdlər qrammatik biliklərin əsaslarını öyrənir və dilin funksional xüsusiyyətlərini dərk etməyə başlayırlar. III sinifdə dil qaydaları təliminin başlanğıc mərhələsidir və bu mərhələ nəzəri Azərbaycan dili təliminə giriş xarakteri daşıyır. Biz bunu əyani olaraq yuxarıda qeyd olunan maddələrə nəzər salaraq da aydın şəkildə görə bilərik. Bir sözlə III sinifdə öyrədilən dil qaydaları şərti xarakter daşıyır. Burada öyrədilənlər yuxarı siniflərdə öyrədilən dil qaydalarına zəmin yaradır. III sinifdə ana dili təlimi gedişatında fonetika, morfologiya və sintaksis haqqında elmi biliklərə hazırlıq işləri aparılır. Dil vahidlərinin qrammatik-leksik təsnifi və inteqrativ tədrisi şagirdin fikrinin ifadəsi üçün vacib hesab olunur. Tapşırıqlar praktik olaraq yerinə yetirilir. Yuxarıda qeyd olunanlar III sinifdə şagirdlər tərəfindən mənimsənildikdən sonra növbəti tədris ilində-IV sinifdə bu deyilən məzmundan daha irəli gedərək inkişaf etdirilir. Daha geniş çərçivədə dil qaydaları şagirdlərə öyrədilir. Müxtəlif dilçiliyə aid olan anlayışlar, terminlər tədrisə yol açır. Lakin əsas məsələ anlayışlar, terminlər şagirdlərin anlayacağı formada şagirdlərə çatdırılır, onlarda bilik və təsəvvürlər formalaşdırılır.

**II sinifdə şagird sadəcə sait samiti tanıyırdısa, sait samiti sözlər daxilində bir-birindən**

**fərqləndirməyi bacarırdısa, üçüncü sinifdə sait və samit səsləri xüsusiyyətlərinə görə fərqləndirir.**

**Həmçinin şagird böyük hərflə yazılan sözlərin niyə böyük hərflə yazıldığını məntiqi formada düşünməyi bacarır, lüğətdən istifadə edərək sözlərin yazılış və deyiliş qaydaları üzərində iş aparır. Cəm şəkilçisi olan –lar, -lər-in həmişə yazıldığı kimi deyil, bəzi hallarda fərqli formalarda tələffüz edildiyini, sözlərin qrammatik məna növlərini uyğun terminlərlə adlandığını yadda saxlayır, rast gəldiyi yeni sözlərin mənasını, yazılış və tələffüzünü müəyyənləşdirmək üçün lüğət və sorğu kitablarından istifadə edir.**

III sinifdə dil qaydaları üzrə hər fəsildə ekspressiv nitq bacarıqları (danışma, yazı) üçün praktiki əhəmiyyət daşıyan müəyyən dil qaydası mənimsədilir. 8-ci bölmədə bu qaydalar ümumiləşdirilərək təkrar olunur. Möhkəmləndirici tapşırıqlardan sonra şagirdlər həmin qaydaları yazıda tətbiq edirlər.

**III sinif şagirdləri qrammatik mənalarına görə (isim, sifət, fel, say) sözləri qruplaşdırırlar. Cümlənin formalaşmasında baş və ikinci dərəcəli üzvlərin rolunu sadə şəkildə izah edir, cümlədə sözlərin düzgün ardıcıllığını müəyyən edirlər.**

**Şagirdlər məqsəd və intonasiyanı dəyişməklə verilmiş cümləni müxtəlif məqamlarda işlətməyi bacarırlar.**

Dil qaydaları məzmun standartlarına uyğun aşağıdakı nəticələrin reallaşması üzrə tədris edilir. Şagird:

4.1.1. Söz yaradıcılığı üzrə bilik və bacarıqlarını nümayiş etdirir.
• Sözə şəkilçi artırmaqla yeni sözlər düzəldir.
• Sözlər arasında uyğunluğu müəyyən edərək mürəkkəb sözlər düzəldir.
• Şəkilçiləri söz və cümlədəki funksiyalarına görə fərqləndirir.
4.1.2. Mənimsədiyi orfoqrafiya qaydalarını sözlərin yazılışında tətbiq edir.
• Sözlərdə sait və samitlərin düzgün yazılış qaydalarına əməl edir.
• Mürəkkəb sözləri tərkib hissələri arasındakı məna əlaqəsindən çıxış edərək düzgün yazır.
• Xüsusi isimlərin böyük hərflə yazılış qaydasına əməl edir.
• Sayları söz və rəqəmlə düzgün yazır.
4.1.3. Cümlədə sözləri leksik-qrammatik xüsusiyyətlərinə uyğun işlədir.
• Əsas nitq hissələrinin (isim, sifət, say, feil, əvəzlik) ümumi leksik-qrammatik xüsusiyyətlərini müəyyənləşdirir.
• Cümlənin ifadə etdiyi fikrə əsasən müvafiq köməkçi sözlərdən istifadə edir.
• Söz birləşməsi və cümlədə sözlər arasındakı əlaqədən çıxış edərək əsas nitq hissələrini uyğun qrammatik formada işlədir.
4.1.4. Mənimsədiyi qrammatik qaydalara uyğun söz birləşməsi və cümlə qurur.
• Sözlər arasında məna əlaqəsini müəyyən etməklə söz birləşməsi və cümlələr qurur. • Məqsəddən asılı olaraq nəqli, sual, əmr cümlələri qurur.
• Sadə cümlələr arasında uyğunluğu müəyyən edərək mürəkkəb cümlə qurur.
• Söz, söz birləşməsi və cümləni bir-birindən fərqləndirir.
4.1.5. Cümlədə müvafiq durğu işarələrindən istifadə edir.
• Mürəkkəb cümlənin tərkib hissələri arasında vergül işarəsindən istifadə edir.
• Məqsəddən asılı olaraq cümlələrin sonunda müvafiq durğu işarələrindən istifadə edir

**Ümumiyyətlə, dil qaydalarının tədrisi ilə bağlı aparılan leksik-qrammatik çalışmalar bir tərəfdən sözün leksik mənası ilə qrammatik mənası arasındakı fərqi başa düşməyə imkan verir, digər tərəfdən, şagirdlərin lüğətini zənginləşdirir, nitqini inkişaf etdirir. Dil qaydaları üzrə aparılan işlərin qrammatik-leksik təsnifi və əlaqələndirilməsi son nəticədə lüğətin zənginləşməsinə, rabitəli nitqin və şagirdlərin təfəkkürünün inkişafına xidmət edir.**

**Müəllim dil qaydalarının leksik-qrammatik təsnifi və inteqrativ tədrisinə nail olmaq üçün bütün vasitə və imkanlardan istifadə etməlidir. Bu prosesdə interaktiv/fəal təlim metodlarından istifadə edilməsi(əqli hücum; klaster, BİBÖ, Venn diaqramı, mozaika, morfoloji qutu, müsahibə, müzakirə, diskusiya, ekskursiya, nitq, rəsm, əsərlərinin yazılı təsviri, müşahidə qabiliyyətinin inkişafı; ifadəli oxu; sərbəst iş, yaradıcı iş və s.) təlimin səmərəliliyini artıran faktor kimi çıxış edir**

III siniflərdə Azərbaycan dili dərslərində qrammatik və leksik biliklərin tədrisi şagirdlərin dil bacarıqlarının inkişafında mühüm rol oynayır. Qrammatik qaydaların praktiki tətbiqi və leksik biliklərin genişləndirilməsi şagirdlərin ana dilinə olan marağını artırır və onların nitq mədəniyyətini formalaşdırır. Tədris prosesində müasir metodların və fərdi yanaşmaların tətbiqi isə təhsilin keyfiyyətini daha da yüksəldir. Bununla yanaşı, şagirdlərin fərdi potensialını üzə çıxarmaq və onların dil bacarıqlarını genişləndirmək üçün davamlı araşdırmalar və innovativ metodlar tətbiq edilməlidir.

**Ədəbiyyat:**

**1)**Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili üzrə təhsil proqramı (kurikulumu) (I-XI siniflər). Bakı, 2013. https://www.arti.edu.az/nodupload/editor/files/1_%20Az%C9%99rbaycan%20dili-Kurikulum%202013.pdf

2) Nurullayeva Ü.,Zahidova Ş.,Bayramova İ., Xanalıyeva A., Məhyəddinova K. (2022) Azərbaycan dili (3-cü sinif üçün dərslik). Bakı, RadiusMMC , 104 s

3) Nurullayeva Ü.,Zahidova Ş.,Bayramova İ., Xanalıyeva A., Məhyəddinova K. (2022) Azərbaycan dili (3-cü sinif üçün metodik vəsait). Bakı, "Tuna" QSC, 208s

4) Y.Ş.Kərimov. Ana dilinin tədrisi metodikasının nəzəri problemləri. Bakı, 2005

58 0 00

**Оучение языковым правилам азербайджанского языка в III классе**

**Резюме**

Важность языковых правил в учебной программе по азербайджанскому языку (Классы I–IV) специально упоминаются в строках содержания. Обучение языковым правилам считается одним из основных видов деятельности учащихся начальных классов.Исключительное значение в обучении правилам имеют работы над лексикой. Как правило, азербайджанский язык

Морфология имеет широкое содержание. Обсуждение морфологии с фонетикой и синтаксисом, развитие устной и письменной речи учащихся, их словарного запаса тесно связано с орфографическими и орфографическими особенностями нашего языка. Со лексикой языковых правил по морфологии

Интегративное обучение прежде всего уточняет понимание значения слова в речи, обогащает и активизирует словарный запас.Богатство словарного запаса является очень важным фактором богатства языка. Таким образом, можно улучшить результаты обучения учащихся.Грамматико-лексическая классификация частей речи с использованием соответствующих стратегий, методов и методов активного обучения инеобходимо добиться организации интегративного обучения

**Ключевые слова**: морфология, лексика, словообразование,обучение

**Teaching of language rules on azerbaijan language subject III class**

**Summary**

The importance of language rules in the Azerbaijani Language Curriculum (Classes I to IV) is specifically mentioned in the content lines. Teaching language rules is considered one of the main activities of primary school students.The works on vocabulary are of exceptional importance in the teaching of the rules. As a language rule, the Azerbaijani language

morphology has a wide content. The discussion of morphology with phonetics and syntax, the development of students' oral and written speech, their vocabulary is closely related to the orthographic and orthographic features of our language. With a lexicon of language rules on morphology

integrative teaching first of all clarifies the understanding of the meaning of the word in speech, enriches and activates the vocabulary. The richness of the vocabulary is a very important factor for the richness of the language. Therefore, it is possible to improve the learning results of students. Grammatical-lexical classification of speech parts using appropriate strategies, active learning methods and methods and it is necessary to achieve the organization of integrative teaching

**Key words:** morphology, lexicon, word creation, teaching

**Rəyçi: dos.S.Abbasova**